# YAŞIL ENERJİ SAHƏSİNDƏ AZƏRBAYCAN-İSRAİL ƏMƏKDAŞLIĞI

**Zeynəb Allahverdiyeva**

*AMEA-nın Qafqazşünaslıq İnstitutu, Bakı*
*zeyneb-allahverdiyeva-00@mail.ru*

Ənənəvi enerji ixracatçısı olan Azərbaycan son illərdə yaşıl enerjiyə keçidlə bağlı fəal iş aparır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, həmçinin Naxçıvanın "yaşıl enerji zonası" elan edilməsi və bu istiqamətdə atılan addımlar beynəlxalq arenada və inkişaf etmiş ölkələrlə münasibətlərdə əlavə müsbət impuls və stimul qazandıra bilər. Dövlətimizin başçısının dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetirir, yaxın gələcəkdə yaşıl və hidrogen enerjisinin ixracatçısına çevriləcək. Bu sahədə ölkəmiz bir çox təşkilatlar və dövlətlərlə əməkdaşlıq edir.

Bərpaolunan və yaşıl enerji sahəsində ölkəmizin əməkdaşlıq etdiyi dövlətlərdən biri də İsraildir. Azərbaycan və İsrail siyasət, energetika, kənd təsərrüfatı, səhiyyə və s. sahələr üzrə əməkdaşlıq edirlər. Yaşıl enerji sahəsində əməkdaşlıq mühüm istiqamətlərdən biridir və yaxın gələcəkdə hər iki ölkə diqqətini bu sahənin inkişafına cəmləyəcək. Azərbaycanın həm günəş, həm də külək enejisi baxımından zəngin imkanlara, həmçinin İsrailin bərpa olunan və yaşıl enerji sahəsində yüksək təcrübəyə malik olması bu sahədə əməkdaşlığın inkişafına təkan verir. Azərbaycandakı mövcud ekoloji şəraiti nəzərə alsaq, İsrailin texniki yardımı ilə ölkə bütün Avropaya "yaşıl enerji" nəql edə və bununla da, qitədə enerji böhranının aradan qaldırılmasına yardım edə bilər.

Son illərdə Azərbaycan və İsrail dövlətləri bu istiqamətdə addımlar atırlar.

İsrail şirkətlərinin işğaldan azad olunan torpaqlarımızda fəal iştirakı önəmlidir. Bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik olan İsrail dəfələrlə Qarabağda və ya Azərbaycanın digər hissələrində "yaşıl enerji" layihələrinin reallaşdırılmasında iştirak etməyə hazır olduğunu bildirib. Hazırda son məlumatlara əsasən, təqribən 10-15 İsrail şirkəti Qarabağdakı layihələrdə iştirak üçün müraciət edib. Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasına öz töhfəsini vermək istəyən şirkətlərin faktiki sayı daha yüksəkdir. Bu baxımdan İsrailin "yaşıl enerji" ilə yanaşı, su resurslarının idarə olunması, kənd təsərrüfatı, səhiyyə, innovasiyalar və ya "ağıllı şəhərlər" kimi bir neçə sahədə təklif edə biləcəyi bir çox şey var.